# 525-ci qəzet

3 avqust 2012-ci il, cümə, №138 (3694). Qiymıti 20 qəpik

www.525.az


## "Heç kim qəsdən öz evinə od vurmaz"

BAKIDA MƏCBURİ KÖSÇKÜNLƏRİN MƏSKUNLAŞDIĞI YATAXANADA BAŞ VERƏN YANĞINDAN ZƏRƏRÇƏKƏN AİLƏLƏR ÜÇÜN ÇADIR ŞƏHƏRCİYİ SALINIB







Srağagün Binəqədi rayonu, Dərnəgül qəsəbəsində Fizuli və Ağdamdan olan məcburi köçkünlərin məskunlaşdığı yataxanada baş verən yanğından zərərçəkən ailələr üçün çadır şəhərciyi salınıb. Zərərçəkən ailələr yataxananın yaxınlığında yerləşən keçmiş Trolleybus parkında qurulan çadırlara köçürülüblər. Trolleybus parkında sakinlər üçün 37 çadır qurulub.

Modern.az-ın əməkdaşı hadisə yerində olub. Zərərçəkmiş məcburi köçkünlərin vəziyyəti ilə maraqlanıb. Zərərçəkən məcburi köçkünlər birmənalı olaraq yenidən yanmış yataqxana binada yaşamağın əleyhinədirlər. Onların sözlərinə görə, indiyədək həmin binada iki dəfə qaz, iki dəfə isə qısaqapanmadan yanğın olub. Axırıncı qaz partlayışından sonra bina əsaslı zədə alaraq qəza vəziyyətinə düşüb.

Ağdam sakini Azad Quliyev bildirdi ki, qaz partlayışından sonra bina qəza vəziyyətinə düşdüyündən heç təmir də etməyiblər: "İndi isə kosmetik təmirdən sonra bizi yeniden buraya köçürmək istəyirlər. Amma biz bunu istəmirik".

Yanğının məcburi köçkünlər tərəfindən qəsdən törədildiyi barədə səslənin iddialar məcburi köçkünlərdə narazılığa səbəb olub.

Bu ifadə ilə təhqir olunduqlarını deyən sakinlər medianın bu versiya üzərində dayanmasına birmənalı olaraq sərt etirazlarını bildiriblər: "Bizə qara yaxanların başına gəlsin".

Bir ayda məhz məcburi köçkünlərin məskunlaşdığı binalarda bu cür dəhşətli yanğının olması insanlar arasında bunun qəsdən törədilməsi ilə bağlı şübhə yaradır.

Modern.az bu şübhələrə aydınlıq gətirməyə çalışıb. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətindən verilən məlumata görə, sözügedən yanğın təsadüf nəticəsində baş verib. Yanğın binanın 3 mərtəbəsindən başlayıb. Həmin mərtəbədə isə quru taxtalar çox olduğundan alışma tez baş verib. Hadisənin qəsdən törədilməsinə gəlincə isə Xidmətdən onu da bildirdilər ki, dalbadal yanğın çağırışları tez-tez olur. Bu o demək deyil ki, həmin yanğınlar qəsdən törədilir. Yanğından heç kim sığortalanmayıb. Ona görə də məcburi köçkünlərin məskunlaşdığı yataqxanada üçüncü dəfə yanğının olması həmin yanğının qəsdən törədilməsi demək deyil.

## Bu gün 2-ci qrupa qəbul imtahanı keçiriləcək



Avqustun 3-də Tələbə Qəbulu üzrə Dövlət Komissiyası 2012-2013-cü tədris ili üçün ali təhsil müəssisələrinə 2-ci ixtisas qrupu üzrə qəbul imtahanı keçirəcək. Komissiyanın mətbuat xidmətindən verilən məlumata görə, imtahan bütün binalarda eyni vaxtda — saat 11:00-da başlanacaq və 3 saat ərzində aparılacaq. Abituriyentlər imtahana şəxsiyyəti təsdiq edən sənədin əslini, imtahana buraxılış vərəqəsini gətirməlidirlər. Bütün qruplar üzrə ixtisas seçimi abituriyentlərin qəbul imtahanlarında topladıqları ballar elan olunduqdan sonra avqustun 7-dən 16-dək internet vasitəsilə aparılacaq. Qeyd edək ki, cari ildə qəbul imtahanları II ixtisas qrupu üzrə — iyulun 14-ü, I ixtisas qrupu üzrə — iyulun 20-si, IV ixtisas qrupu üzrə — iyulun 27-də keçirilib. İxtisas qruplarında ən aşağı keçid balı (150 bal) I ixtisas qrupu üzrədir.

**S.QARAYEVA**

## Moskvada Putinlə Sərkisyanın görüşü keçiriləcək

Ermənistan prezidenti Serj Sərkisyan avqustun 8-də Rusiyaya səfər edəcək. APA-nın Kremlin rəsmi saytına istinadən verdiyi məlumata görə, Serj Sərkisyan Moskvada Rusiya prezidenti Vladimir Putin ilə görüşəcək. Görüş zamanı siyasi, humanitar, ticarət və iqtisadi sahələrdə ikitərəfli əməkdaşlığın əsas məsələləri müzakirə olunacaq. Görüşdə xüsusilə də MDB və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında iştirak, Cənubi Qafqazda vəziyyət, beynəlxalq və regional gündəmin aktual məsələləri, Avrasiya inteqrasiya prosesləri çərçivəsində Rusiya və Ermənistan arasında əməkdaşlıq məsələləri nəzərdən keçiriləcək.

## İran Azərbaycanla viza rejimini bərpa edir

İRAN XARİCİ İŞLƏR NAZİRLİYİ BUNUNLA BAĞLI AZƏRBAYCAN XİN-Ə MÜVAFİQ NOTA GÖNDƏRİB



Bu ay Tehranda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət başçılarının zirvə görüşü keçiriləcək. APA-nın məlumatına görə, İran Xarici İşlər Nazirliyi bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyinə nota göndərib. Notaya əsasən qeyd olunan zirvə görüşü ilə əlaqədar avqustun 5-dən 31-dək Azərbaycan vətəndaşlarının İrana səfər etməsi üçün viza rejimi tətbiq olunacaq. Bu tarixdən sonra əvvəlki viza rejimi bərpa olunacaq.

### Argentinada qondarma "soyqırımı" tanıyan sənəd qəbul edildi

Argentinanın Buenos-Ayres şəhərinin San İsidora inzibati dairəsinin şəhər şurası qondarma erməni soyqırımının tanıyan və qınayan qətnaməyə yekdilliklə səs verib.

ANS PRESS-in Ermənistan mətbuatına istinadən verdiyi məlumata görə, Xulin Rita Kuzisin sədrlik etdiyi şura eyni zamanda hələ 2006-ci ildə Argentina senatı və deputatlarının qəbul etdiyi "erməni xalqının yaşadığı soyqırımı" adlı respublika qanununa da qoşulublar.

### Erməni silahlı bölmələri bir neçə istiqamətdə atəşkəsi pozub

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının İcevan rayonunun Berkaber, Noyenberyan rayonunun Voskevan kəndlərində, işğal olunmuş Xocavənd rayonunun Kuropatkino, Tərtər rayonunun Çaylı, Qızıloba, Goranboy rayonunun Tapqaraqoyunlu, Ağdam rayonunun Şıxlar kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən atəşkəs rejimini pozublar. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, düşmən cavab atəşi ilə susdurulub.

### Ermənistanda hakim koalisiya daxilində qarşıdurma başlayıb

Ermənistanda hakim koalisiya daxilində qarşıdurma başlayıb. APA-nın məlumatına görə, baş nazir Tiqran Sərkisyan koalisiyada təmsil olunan "Çiçəklənən Ermənistan" partiyasının iki yüksək vəzifəli məmurunu işdən azad edib. İşdən çıxarılanlar nəqliyyat və rabitə nazirinin müavini Ruben Sinoyan və Araqatsotn administrasiyasının müdir müavini Manafas Arakelyandır. Onların işdən çıxarılmasının səbəbləri açıqlanmır.


**ELAN**

Dünyaşöhrətli professor, doktor **Cavad Heyət** Bakıda.

Hər gün saat 10.00-dan 13.00-a qədər xəstələrini qəbul edir.

**Ünvan: Nizami küçəsi 149, 2-ci blok, 2-ci mərtəbə, mənzil 27 (həyət qapısından girmək lazımdır).**

**Telefon: (012) 493-98-74, (050) 395-18-54**


### *Elman Abdullayev:*
## "Bu səfər Azərbaycanla Latın Amerikası ölkələri arasında sıx münasibətlərin qurulmasında böyük rol oynayacaq"

"Azərbaycan diplomatiyasının tarixində ilk dəfə olaraq, xarici işlər naziri Elmar Məmmədyarovun Latın Amerikası ölkələrinə səfər turnesinin əhəmiyyəti hər şeydən əvvəl, onun yekunlarından asılıdır. Bu səfərlərin nəticələri isə onu əminliklə deməyə əsas verir ki, yekun Azərbaycanla Latın Amerikası ölkələri arasında sıx münasibətlərin və əməkdaşlığın qurulmasında çox böyük rol oynayacaq". Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Elman Abdullayev nazir E.Məmmədyarovun Latın Amerikası ölkələrinə səfərini şərh edərkən bildirib. O deyib ki, Latın Amerikası ölkələri ilə qarşılıqlı münasibətlərin genişlənməsi bu baxımdan xüsusi əhəmiyyətə malikdir: "Onu da nəzərə almalıyıq ki, cənab Prezident İlham Əliyev Azərbaycan diplomatiyasının qarşısında diplomatiyanın fəallığının artırılmasını və fəaliyyət coğrafiyasının genişləndirilməsini gələcək fəaliyyət məsələsi kimi müəyyənləşdirib. Vacib olan odur ki, bu turne Latın Amerikası ölkələrinin bir sıra parlamentlərinin nümayəndələrindən ibarət heyətin Azərbaycana səfərindən sonra baş tutdu. Qeyd etməliyəm ki, sözügedən səfərin bu ölkələrdə çox böyük təsir gücünə malik erməni diasporu tərəfindən böyük etirazın meydana gəlməsi, küçələrdə etiraz aksiyaları və siyasi dairələrə təsir etmələri ilə müşayiət olunmasına baxmayaraq, bu turne baş tutdu. Əyani şəkildə nümayiş olundu ki, dünya ölkələri Azərbaycan kimi güclü dövlətlərlə əməkdaşlıqda maraqlıdırlar və belə bir əməkdaşlığın inkişaf etdirilməsi marağı ilə müqayisədə diasporun rolu və onun ölkələrin siyasətinə təsir etmək gücü elə də əhəmiyyət kəsb etmir. Heç bir diaspor dövlətlərimiz arasında münasibətlərin inkişafına maneçilik törədə bilməz". XİN rəsmisinə görə, bu nöqteyi-nəzərdən, Azərbaycan bir daha sübut etdi ki, o, xarici dövlətlərlə münasibətlərini qarşılıqlı etimad, mənfəət və hörmət əsasında yaradır: "Bu baxımdan da, bu səfər turnesinin əhəmiyyəti olduqca böyükdür, çünki o münasibətlərimizdə yeni səhifələr açır, münasibətlərimizi tamamilə yeni müstəviyə çıxarır. Bundan əlavə xatırladım ki, Meksika və Kolumbiya bu yaxınlarda Xocalı soyqırımını tanıyıb. Ona görə erməni lobbisi üçün məğlubiyyətlə barışmaq çətindir, xüsusən də onların bu ölkənin siyasi dairələrinə bütün təsir etmək səyləri uğursuz oldu. Çox mühümdür ki, erməni diasporunun onillliklər ərzində Cənubi Qafqazla baş verən hadisələr barədə apardıqları dezinformasiya kampaniyası bu gün özünü doğrultmayıb. Çünki Azərbaycan nümayəndə heyətinin səfəri bir daha təkrar edirəm ki, çox uğurlu keçdi. Bu, bir daha göstərir ki, Latın Amerikası ölkəsi üçün güclü inkişaf etmiş ölkə ilə əlaqələrin əhəmiyyəti hansısa diaspordan daha çox vacibdir". Səfər zamanı imzalanan sənədlərin Azərbaycanın bu ölkələr ilə münasibətlərinin gələcək inkişafında hansı rolu oynamasına gəlincə, E.Abdullayev deyib ki, həqiqətən, turne zamanı bir neçə mühüm sənəd imzalanıb: "Xüsusilə də, Uruqvay parlamentində Azərbaycanla dostluq qrupunun yaradılması barədə sənəd imzalandı, eyni zamanda sözügedən ölkə ilə diplomatik və xidməti pasport sahiblərinin vizadan azad edilməsi barədə sənəd imzalandı. Azərbaycan nümayəndə heyəti bu turne çərçivəsində həmçinin bir neçə biznes-forum keçirdi. Təbii ki, onlar olduqca böyük əhəmiyyətə malikdir, çünki qurulan ikitərəfli münasibətlər və genişləndirilən əməkdaşlığın kökündə gücləndirilmiş müqavilə-hüquq bazası durur. Bu, ikitərəfli münasibətlər üçün çox mühüm məqamdır".

Hazırda XİN rəhbərinin Peruda səfərdə olduğunu deyən E.Abdullayev bununla nazirin Latın Amerikası ölkələrinə səfərinin başa çatacağını vurğulayıb.

**PƏRVANƏ**

## Gəncə iftar məclislərinə qadağa qoyulubmu?

DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ AÇIQLAMA YAYDI



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi son günlər müxtəlif mətbuat orqanlarında Azərbaycanın qərb bölgəsində, xüsusən də Gəncə şəhərində icra strukturları tərəfindən Ramazan ayında əhyə gecələrinin keçirilməsinin qadağan edilməsi və iftar süfrələrinin açılmasına icazə verilməməsi ilə bağlı yayılan məlumatlara münasibət bildirib.

Komitədən verilən açıqlamada qeyd olunur ki, mövzu ilə bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən aparılan araşdırma nəticəsində yuxarıda qeyd olunan məlumatların əsassız olduğu üzə çıxıb.

"Adıçəkilən bölgədə Ramazan ayının ibadətlərinə, o cümlədən iftar süfrələrinin açılmasına rəsmi strukturlar tərəfindən hər hansı qadağa qoyulmayıb. Əksinə, Gəncədə fəaliyyət göstərən dini icmalar, o cümlədən din xadimləri bu il ictimai əhəmiyyətli bir təşəbbüs irəli sürərək, iftar vermək istəyən şəxslərə bu xeyirxah işi icmalarla birgə uyaq və qocalar evlərində, həmçinin kimsəsizlər üçün təşkil etmələrini tövsiyə ediblər" — deyə açıqlamada bildirilir.

Daha sonra qeyd olunur ki, dünən Gəncədə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü və Dövlət Komitəsinin yerli şöbəsinin iştirakı ilə şadlıq saraylarının birində dindarlar, imkansızlar və şəhid ailələri üçün iftar süfrəsi təşkil edilib. Bu cür iftar süfrələrinin bütün Ramazan ayı boyunca, xüsusən əhyə gecələrində təşkili nəzərdə tutulur: "Dövlət Komitəsi bildirir ki, bu kimi fakta əsaslanmayan və səthi xarakterli açıqlamalar müstəqil dövlətçiliyimizə xor baxan qüvvələrin "antitəbliğat" dəyirmanına su tökür və milli maraqlarımızla ziddiyyət təşkil edir. Komitə mövzu ilə bağlı vəziyyəti nəzarətdə saxlayacaq".

## Bu gün Bakıda 38 dərəcə isti proqnozlaşdırılır

Həftə sonu Azərbaycan paytaxtında meteohəssas insanlar üçün əlverişsiz hava şəraiti proqnozlaşdırılır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, avqustun 3-dən 5-dək Abşeron yarımadasında zəif küləklərin üstünlüyü fonunda günorta saatlarında isti temperatur yaradacağı diskomfort şərait meteohəssas insanlar üçün əlverişsizdir. Bu gün isə Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 20-25, gündüz 33-38 dərəcə isti təşkil edəcək. Abşeronun çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 25-26, Buzovna, Mərdəkan, Şüvəlanda 26-27, Türkan, Hövsan, Şıx, Sahildə 27-28 dərəcə isti olacaq. Azərbaycanın rayonlarında sabah hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin gecə və axşam bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25, gündüz 33-38, dağlarda gecə 11-16, gündüz 23-28 dərəcə isti olacaq.

# Türkiyəli qonaqlar "525"də olublar

## QARDAŞ ÖLKƏ NÜMAYƏNDƏLƏRİ AZƏRBAYCANLA BAĞLI HƏYATA KEÇİRMƏK İSTƏDİKLƏRİ LAYİHƏ HAQQINDA GENİŞ MƏLUMAT VERİBLƏR





Ötən gün Yalova bələdiyyə sədrinin məsləhətçisi Şəmsəddin Şəkər, Türkiyənin ölkəmizdəki səfirliyinin mədəniyyət və tanıtma müşaviri Seyid Əhməd Arslan, sənət tarixçisi Asiyə Karabulud və memar Aydın Avcının təmsil olunduğu nümayəndə heyəti redaksiyamızın qonağı olub. Qonaqlar müsahibələrində Azərbaycana gəlişlərinin məqsədini açıqlayıblar. Türkiyəli nümayəndələr həyata keçirmək istədikləri mühüm bir layihənin təfərrüatlarını qəzetimizin oxucuları ilə bölüşüblər.

Şəmsəddin Şəkər Azərbaycanda olduqları üç gün ərzində muzeyləri, mədəniyyət mərkəzlərini gəzdiklərini qeyd edib: "Bu günlər ərzində ədəbi fəaliyyətləri, qəzetləri izlədik. Azərbaycandakı səfirliyimizin mədəniyyət attaşeliyi ilə birgə təmsil etdiyimiz vilayətdə bağlı həyata keçirəcəyimiz bir layihə səbəbindən buradayıq. Yalova bələdiyyəsi olaraq "Türk Dünyası Şairlər Otağı" adı ilə indiyədək yaşayıb-yaratmış böyük türk şairlərindən 40 nəfəri özündə ehtiva edən bir muzey yaratmağı qarşımıza məqsəd qoymuşuq. Azərbaycandan da 4 böyük istiqlal şairinin — Hüseyn Cavid, Əhməd Cavad, Bəxtiyar Vahabzadə və Məhəmmədhüseyn Şəhriyarın həyat və yaradıcılığını türkiyəli gənclərə və turistlərə sərgiləmək istəyirik. Arzu edirik ki, türk yeniyetmə və gəncləri Azərbaycanın böyük şairlərini tanısınlar. Bununla bağlı səfərimiz çərçivəsində Azərbaycanda mədəniyyət və turizm naziriliyinin rəsmi şəxsləri ilə görüşlər keçirmişik, adı çəkilən şairlərimizin ev muzeyləri ilə əlaqə saxlamışıq, lazımi məlumatları almışıq. Layihənin həyata keçməsi ilə bağlı Azərbaycanda məsələyə aidiyyəti olan insanlarla və qurumlarla görüşlər keçirmişik. Bu görüşlərdən çox məmnun olduq. Çünki hansı qapıya getdiksə, gülər üzlə, qardaşcasına münasibətlə qarşılaşdıq və azərbaycanlı şairlərin Türkiyədə tanıdılmasından hər kəsin xoşbəxtlik hissi keçirdiyinin şahidi olduq. Buna görə bütün Azərbaycan xalqına, onun dəyərli ziyalılarına təşəkkür edirəm". Sözügedən ideyanın yaranmasından danışan Ş. Şəkər bunun bir zərurət səbəbindən meydana gəldiyini açıqlayıb: " Türk dünyasında belə bir layihənin olmadığını gördük. Türk xalqlarının bir-birilərinin ziyalılarını tam mənası ilə tanımadıqlarını gördükdən sonra belə bir orijinal layihəni Yalova bələdiyyəsi olaraq gerçəkləşdirməyə qərar verdik. Yeganə məqsədimiz türk dünyasının ziyalılarını, böyük mütəfəkkirlərini bir-birimizə tanıtmaqdır. İstəyirik ki, hansısa türk balası bu muzeyə girəndə orada Azərbaycandakı Bəxtiyar Vahabzadə ilə Türkiyədəki Məhmət Akif arasında bir fərq olmadığını görsün və ya Abayı tanısın, bir qırğız dastanını öyrənsin, Kərkükdən məlumatı olsun. Bütün türk dünyasında artıq yüzillərdir uzaqlaşan mədəniyyət tellərini yaxınlaşmasını, eyni bir millətin övladları olduğumuzu ən azından Türkiyədəki türklərin bilməsini istəyirik. İnşallah, 2013-cü ilin sonuna qədər layihəni yekunlaşdırmaq istəyirik. Türk Dünyası Şairlər Otağı Muzeyi türk dünyası tarixində bir ilk olacaq. Muzeydə müstəqil türk dövlətlərindən Azərbaycan, Türkmənistan, Qırğızıstan, Özbəkistan, Qazaxıstan şairləri ilə yanaşı dövlət olaraq mövcud olmayan türk xalqlarının-başqırdlar, tatarlar, kərküklər şairləri ilə təmsil olunacaq. Bolqarıstan, Yunanıstan və Makedoniyadan olan türklərin şairlərindən nümayəndələr də olacaq. Burada xalqın dövlətinin olub-olmaması əhəmiyyətli faktor deyil, onların mədəniyyət və ədəbiyyat tarixinə bəxş etdikləri töhfələr, türk dünyasına xidmətləri əsas götürülür. İstiqlal şairləri, türk dünyasını bir-birinə ən çox yaxınlaşdıran, həyatlarını buna həsr edən söz adamları haqqında məlumatlar yer alacaq. Muzeydə 40 şairlə bağlı nə varsa- kitablar, proşürlər, filmlər, fotolar və sair sərgilənəcək. Həm də mövzularla bağlı sənədli filmlərin çəkilişi də nəzərdə tutulur".

Layihədə hələlik məhz 40 şairin yer almasını Ş. Şəkər bunun uğur gətirəcəyinə inanmaları ilə əlaqələndirib: "Türklərdə tarix boyunca qırx sayı uğurlu olub. Bizim dastanlarımızda, məsələn "Kitabi-Dədə Qorqud"da qırx araba ilə gedirlər, nağıllarımızdakı qırxıncı qapı və sair. İslam dönəmində biz bunu qırx birə çıxardıq və "qırx bir kərə maşallah" dedik. Hələ bu qüdsi rəqəmi gerçəkləşdirməyi, sonra bütün türk dünyası ziyalılarının birgə dəstəyi ilə bu sayı 1001-ə çatdırmağı düşünürük və beləliklə də bütün türk dünyasının şair, yazıçı və mütəfəkkirlərinin fəaliyyətini sərgiləmiş olarıq. Layihənin Yalovadakı adıçəkilən muzeylə bağlı hissəsi bələdiyyəmizin, başqa ölkələrə aid hissəsi isə həmin ölkələrə etdiyimiz rəsmi müraciətlər əsasında hər bölgənin öz maliyyə yardımı ilə gerçəkləşdiriləcək. Sonra təmsil olunan ölkələrin hər birindən rəsmi nümayəndələr dəvət edilməklə türk dünyası qurultayı ilə muzeyin açılışı reallaşacaq". Azərbaycana, Bakıya ilk gəlişinin olduğunu bildirən həmsöhbətim dolğun təəssürat aldığını qeyd edib: "Həmişə xəyallarımda yaşatdığım bir səfər həyata keçib. Belə bir xeyirli vəsilə ilə gəlmək qismətimizdə olduğu üçün çox xoşbəxtəm. Hələ uşaqlığımdan zehnimdə Azərbaycan vardı — öz layiqli, tanınmış övladları ilə. İndi də onların sırasına Rəşad Məcid kimi, Azər bəy kimi ziyalılar əlavə olundu. Bundan çox məmnun oldum. Bakı par-par yanan, xəyallarımdakından da gözəl bir şəhərdir. Şəhər olaraq da çox inkişaf etmiş bir məkandır. Bakı Allahın sevərək yaratdığı şəhərlərdəndir. Qədrini-qiymətini bilmək lazımdır".

Layihədə orijinal iç dizaynı ilə məşğul olacaq sənət tarixçisi Asiyə Karabulud hələ peşə həyatının əvvəlində olduğunu və belə böyük, bütün türk dünyasının marağına səbəb olacaq bir layihədə yer aldığına görə özünü xoşbəxt hiss elədiyinin vurğulayıb: "Çünki eləyəcəyimiz iş həm Türkiyədə, həm də türk dünyasında bir ilk olacaq. Mükəmməl bir işlə türk dünyasının qarşısına çıxmaq üçün qrup olaraq hamımız səfərbər olmuşuq. İnanıram ki, hər şey alınacaq. Muzeydə qırx şairdən başqa böyük bir kitabxana da yaratmağı planlaşdırırıq. Memarlığı, daxili quruluşu ilə fərqli bir iş ortaya qoymaq istəyirik". Layihənin peşə həyatında ilk işi olması səbəbindən çox həyəcanlandığını bildirən A. Karabulud vilayətin bələdiyyə sədri Yaqub bəyin də bu layihəyə böyük önəm verdiyini deyib. Bu mənada üzərlərinə böyük bir məsuliyyət düşdüyünü, amma öhdəsindən gələcəklərinə əminliyini ifadə etdi. Yalovanın Türkiyənin göz bəbəyi olan İstanbul, Kocaeli və Bursanın qonşuluğunda, yaşıllıqlar və dəniz arasında gözəl turistik bir ortamda yerləşdiyini vurğulayan A. Karabulud muzeyin bölgəyə daha böyük turist axını cəlb edəcəyinə inandığını bildirib. Azərbaycana ilk dəfə gəldiyini, Bakının çox sadə və şıq bir şəhər olduğunu deyən A. Karabulud buradakı görüşlərdə hər kəsin onları sevgi və hörmətlə qarşıladığını söyləyib.

Layihənin memarlarından Aydın Avcı bu layihədə iştirakından məmnunluğunu diqqətə çatdırıb. A. Avcı layihənin memarlıq və inşaat işlərinin ona aid olacağını, bu məsuliyyətli işin öhdəsindən layiqincə gələcəyinə inandığını qeyd edib. A. Avcı müsahibəsində Azərbaycanı çox bəyəndiyini, indiyədək Bakıya gəlməməsindən peşmanlığını nəzərə çatdırıb.

Türkiyənin Azərbaycandakı səfirliyinin mədəniyyət və tanıtma müşaviri Seyit Əhməd Arslan söhbətimizdə hər iki ölkə arasında sağlam bir ünsiyyət qurmağın səfirlik olaraq başlıca vəzifələri olduğunu vurğulayaraq bu layihədən irəli gələn işləri görmək üçün Azərbaycanda zəmin hazırladıqlarını bildirib. Layihə ilə bağlı Hüseyn Cavidin ev muzeyində, Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyində olduqlarını, muzeyin direktoru Rafael Hüseynovla səmimi bir görüşün alındığını, mədəniyyət və turizm nazirliyində aiddiyyəti olan şəxslərlə görüşdüklərini, lazımi dəstəyi aldıqlarını söhbətimdə önə çəkib. Bu layihə haqqında öyrəndikdə Azərbaycan tərəfi də çox xoşbəxt və məmnun oldu. Biz də bu məsələdə vasitəçi olmağımızdan çox sevinirik. Yalova coğrafi olaraq çox gözəl bir bölgədir və hər il ulduzu daha çox parlayan vilayətlərimizdəndir. Turizm potensialı yüksəkdir, xüsusilə də termal turizm çox inkişaf edib. Burada universitetin olması da bölgənin araşdırma qaynağına çevrilməsinə zəmin yaradır. İnanıram ki, Türk Dünyası Şairlər Otağı Muzeyi araşdırmaçı alimlər, tələbələr və şəhərə gələn qonaqlar üçün əhəmiyyətli bir mərkəzə çevriləcək və mədəniyyətimizə böyük töhfələr verəcək. İnsan xarici ölkələrə getdikdə baş çəkəcəyi yerlərin siyahısını tərtib edir. İnanıram ki, bu muzey həmin siyahıda layiqli yerini alacaq.

S.MÜRVƏTQIZI

# Dövlət orqanına ünvanlı sosial yardımla bağlı 5460 müraciət daxil olub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin məsul əməkdaşları tərəfindən müvafiq qrafikə uyğun olaraq, hər gün vətəndaşların qəbulu təşkil olunur və onların müraciətlərində qaldırılan məsələlər dərhal araşdırılaraq nəticəsi barədə vətəndaşlara məlumat verilir. Nazirlikdən verilən məlumata görə, bu ilin birinci yarısında Xidmətin məsul əməkdaşları tərəfindən 994 vətəndaş qəbul olunub. Onların 521 nəfərinə müraciətlərinə uyğun olaraq ünvanlı sosial yardımla bağlı izahat işi aparılıb. Həmin vətəndaşlardan məşğulluq probleminin olduğunu qeyd edən 86 nəfərə müvafiq ərazi üzrə Məşğulluq Mərkəzinə müraciət etməsi tövsiyə olunub.

Ünvanlı sosial yardım üçün sənədlərinin rayon (şəhər) Əhalinin sosial müdafiəsi mərkəzləri tərəfindən qəbul olunmamasından şikayətlənən 89 nəfərin sənədlərinin tam tərkibdə olmadığı məlum olub və onlara ünvanlı yardım üçün sənədləri tam tərkibdə toplayaraq təqdim etmələri bildirilib. Ailələrinə ünvanlı yardım təyin olunmamasından şikayətlənən digər vətəndaşlara ünvanlı sosial yardımla bağlı qanunvericilik ətraflı izah olunub, ünvanlı yardımın yalnız özlərindən asılı olmayan səbəblərdən yoxsulluq vəziyyətində yaşayan ailələrə şamil olunduğu onların diqqətinə çatdırılıb.

Cari ilin I yarımili ərzində Xidmətə ünvanlı sosial yardımla bağlı 5460 müraciət daxil olub ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 1331 ədəd, yəni 19,5 faiz azdır. Daxil olan müraciətlərin 2304-ü Prezident Administrasiyasından, 71-i Nazirlər Kabinetindən, 240-ı Milli Məclisdən, 478-i Baş Prokurorluqdan, 20-i Ombudsman Aparatından, 322-i digər təşkilatlardan, 2025-i isə birbaşa vətəndaşlar tərəfindən ünvanlanıb. Həmin müraciətlərin böyük əksəriyyəti, yəni 3611 ədədi sorğu xarakterli, 1412 ədədi ünvanlı yardımla bağlı sənədlərin qəbul olunmaması və yardım təyinatının gecikdirilməsi, qalanları digər məsələlərlə bağlı olub. Aparılan təhlillər göstərir ki, cari ilin son 2 ayı ərzində müraciətlərdə azalma tendensiyası müşahidə olunmaqdadır. Müvafiq olaraq azalma may ayında 48,7 faiz, iyun ayında isə 34,7 faiz təşkil edib. Bu isə yerlərdə aparılan maarifləndirmə və izahat işinin nəticəsidir. Ərizə və şikayətlərlə bağlı yerlərdə Xidmətin rəhbər və məsul işçiləri tərəfindən mütəmadi görüşlər keçirilmiş, mövcud vəziyyət araşdırılıb, çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tədbirlər görülüb.

2012-ci ilin I yarımilində Dövlət Sosial Təminat Xidmətinə "142 Qaynar xətt" vasitəsilə 1581 vətəndaş müraciəti olub. Həmin müraciətlərin 1504-ü ünvanlı sosial yardım, 66-ı sosial müavinətlərlə, 11-i isə digər səbəblərlə bağlı olub. Bu xidmət vasitəsilə vətəndaş müraciətlərinin operativ və ədalətli cavablandırılması "142 Qaynar xətt"ə əhali arasında etimad hissinin artmasına səbəb olub. Belə ki, ilk yarımil ərzində hər gün "142 Qaynar xətt"ə orta hesabla 11-12 müraciət daxil olubsa, iyul ayında bu rəqəm 23-24-ə yüksəlib.

BƏXTİYAR

# "Royalbank"ın qorunan əmanətləri üzrə kompensasiyaların ödənilməsinə başlanılıb

Mərkəzi Bankının İdarə Heyətinin 12 iyul 2012-ci il tarixli qərarı ilə "Royalbank" ASC-nin lisenziyası ləğv edilib.

Eyni zamanda, Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə 13 iyul 2012-ci il tarixdən "Royalbank" ASC-yə müvəqqəti inzibatçı təyin edilib. Həmçinin, kreditorları qarşısında öhdəliklərini yerinə yetirə bilməməsi ilə əlaqədar bank barəsində iflas proseduralarının başlanması üçün Mərkəzi Bank 16 iyul 2012-ci il tarixdə 1 saylı Bakı İnzibati İqtisadi Məhkəməsinə müraciət olunub. Mövcud qanunvericiliyə əsasən, həmin andan bankın öhdəliklərinin icrasına moratorium qüvvəyə minib. Mərkəzi Bankdan verilən məlumata görə, iyulun 25-də 1 saylı Bakı İnzibati İqtisadi Məhkəməsnin qərarı ilə banka ləğvedici təyin edilib. Hazırda bankda ləğvedici fəaliyyətə başlayıb.

"Royalbank" ASC Əmanətlərin Sığortalanması Fondunun üzvü olduğundan bankın qorunan əmanətləri üzrə qanunvericilikdə müəyyən edilmiş qaydada kompensasiyalar ödənilməlidir. Qorunan əmanətlərin kriteriyaları qanunvericiliklə müəyyən edilib. Kompensasiyalar qorunan əmanət üzrə əmanətin 100 faizi həcmində, lakin 30 min manatdan çox olmamaq şərtilə ödənilir. Bu şərtlər hər bir əmanətçi ilə bağlanan əmanət müqaviləsində əks olunub.

Avqustun 1-dən etibarən Əmanətlərin Sığortalanması Fondu qanunvericiliyə uyğun olaraq seçilmiş müvəkkil banklar ("Muğan Bank" ASC, "AGBank" ASC və "Bank Respublika" ASC) vasitəsilə "Royalbank" ASC-nin qorunan əmanətləri üzrə kompensasiyaların ödənilməsinə başlanılıb. Qalan əmanətlər, habelə banka qarşı bütün digər kreditor tələblər bankın yığılan aktivləri hesabına ödəniləcək. "Banklar haqqında" Qanuna əsasən banka qarşı tələblər bankın müflis elan olunmasına dair məhkəmə qərarının kütləvi informasiya vasitələrində ilk dəfə dərc edildiyi gündən 60 təqvim günü ərzində ləğvedici tərəfindən yazılı şəkildə qeydə alınır və kreditorların tələbləri müvafiq növbəlilik əsasında icra edilir. Öhdəliklərin icrası zamanı əhalinin əmanətlərinin qaytarılması prioritet təşkil edəcək.

BƏXTİYAR

# Bakı Biznes Tədris Mərkəzində koreyalı ekspertlərlə görüş keçirilib

Bakı Biznes Tədris Mərkəzində İqtisadi İnkişaf Nazirliyi ilə Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi arasında imzalanmış "Azərbaycanda Xüsusi İqtisadi Zonaların (XİZ) və Sənaye Şəhərciklərinin İnkişafı Layihəsi" çərçivəsində Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOİCA) ekspertləri ilə görüş keçirilib. Mərkəzdən verilən məlumata görə, tədbirdə iştirak edən Bakı Biznes Tədris Mərkəzinin direktor müavini Rahim Mürsəlov Mərkəzin fəaliyyəti, Azərbaycanda Xüsusi İqtisadi Zonaların (XİZ) və Sənaye Şəhərciklərinin inkişafına dəstək göstərmək üçün həyata keçirilməsi nəzərdə tutulan təlimlər və seminarlar, kadrların ixtisasının artırılması istiqamətində beynəlxalq təcrübənin öyrənilməsi məqsədi ilə Almaniyada keçirilən ixtisasartırma kursları barədə ətraflı məlumat verib.

Görüşdə, həmçinin Xüsusi İqtisadi Zonalar və Sənaye Parklarının idarə olunması və insan potensialının gücləndirilməsi istiqamətində azərbaycanlı və koreyalı ekspertlərin birgə həyata keçirəcəyi tədqiqatlar müzakirə edilib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

BƏXTİYAR

# Vergilər Nazirliyi əmək münasibətlərinə vergi nəzarətinin təşkili sahəsində kompleks tədbirlərə başlayıb

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi islahatlar nəticəsində ölkə ərazisində sahibkarlığın inkişafının daha da sürətləndirilməsi, istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsi, yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması, həmçinin əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində uğurlu nəticələr əldə edilib. Lakin əhalinin həyat səviyyəsinin, eləcə də gəlirlərinin yüksəlməsinə baxmayaraq, bir sıra hallarda vergi ödəyiciləri və ya işəgötürənlər tərəfindən müəyyən edilmiş vergi və ödənişlərdən yayınmaq məqsədilə qanunvericiliyin tələblərini pozaraq işçilərlə əmək müqavilələri bağlamır, iş yerləri rəsmiləşdirilmədən onlara müxtəlif işlərin görülməsini həvalə edirlər". Bu sözlər Vergilər Nazirliyinin analitik-informasiya şöbəsinin məlumatında deyilir.

Bildirilib ki, bəzi hallarda isə işəgötürənlər işçilərlə əmək müqavilələri əvəzinə mülki-hüquqi xarakterli xidmət müqavilələri bağlayır və ya onlara verilən əmək haqlarının az bir hissəsini sənədləşdirirlər ki, bu da vergi öhdəliklərini və sosial sığorta ayırmalarını minimuma endirir: "Nəticədə, işçilərin hüquqları tapdalanır, onların gələcək sosial təminatı təhlükə altında qoyulur və gəlir vergisi üzrə vergitutma bazası azalır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş 11 iyul 2012-ci il tarixli iclasında iqtisadiyyatın müxtəlif sektorlarında çalışanların bir qisminin qeyri-qanuni işləməsi, yəni maaşların qeyri-leqal şəkildə verilməsi həm vergilərdən yayınmaya, həm də ölkənin bugünkü sosial vəziyyətinin real əks etdirilməməsinə səbəb olduğu bildirilmiş və bununla da gəlir vergisi üzrə vergitutma bazasının leqallaşdırılması istiqamətində vergi orqanlarının üzərinə konkret vəzifələr qoyulub".

Qeyd olunan tapşırıqların icrası, vergidən yayınma hallarının, əlavə vergi potensialının müəyyən edilməsi məqsədilə işçi saylarının və iş yerlərinin düzgün rəsmiləşdirilməsinin təmin olunması məqsədilə vergilər nazirinin 18 iyul 2012-ci il tarixli əmri ilə "İşəgötürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi hallarının qarşısının alınması istiqamətində görüləcək işlərə dair" Tədbirlər Planı təsdiq olunmuş və bu sahəyə çevik nəzarətin təmin edilməsi üçün Vergilər Nazirliyində Qərargah yaradılıb. Nəzərdə tutulmuş tədbirlər çərçivəsində işçilərlə qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmək müqavilələrinin (kontraktının) bağlanılmaması meyarı üzrə riskli vergi ödəyiciləri seçilmiş və Vergi Məcəlləsinin 38.3.5-ci maddəsinə əsasən vergilər və digər icbari ödənişlər üzrə qanunvericiliyə əməl edilməsi vəziyyətinin düzgünlüyünün yoxlanılması məqsədilə onlardan birində, "Atlanta" Mənzil-Tikinti Kooperativində müvafiq vergi nəzarəti tədbirləri keçirilib.

Bakı şəhərinin Günəşli qəsəbəsində 2 çoxmərtəbəli yaşayış binası inşa edən "Atlanta" Mənzil-Tikinti Kooperativində keçirilmiş kompleks tədbirlər nəticəsində Vergilər Nazirliyinin çoxsaylı xəbərdarlıqlarına baxmayaraq MTK-nın rəhbərliyi tərəfindən 60 nəfər fiziki şəxsin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) bağlamadan müxtəlif işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edildiyi, bununla da onların gəlirlərinin gizlədildiyi aşkarlanmışdır. Əmək müqaviləsi bağlanılmayan işçilərdən və MTK-nın rəhbərliyindən alınmış izahatlardan aydın olmuşdur ki, həmin fəhlələrin MTK-da 6-7, hətta 8 aydan çox çalışmasına baxmayaraq, onların heç biri ilə əmək müqavilələri (kontraktları) bağlanılmamış və sənədləşdirmə işləri aparılmayıb.

Faktla bağlı materiallar Cinayət Məcəlləsinin müvafiq maddəsi üzrə cinayət işinin başlanması üçün Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə təqdim edilib.

Vergilər Nazirliyi bir daha xəbərdarlıq edir ki, işçilərin əmək müqaviləsi olmadan işlərin görülməsinə cəlb edilməsi hallarının qarşısı gələcəkdə də qətiyyətlə alınacaq, intizamsız vergi ödəyicilərinə qarşı qanunda nəzərdə tutulan ən sərt tədbirlər görüləcək.

# İsrailin səfirinin diplomatik missiyası başa çatır

İsrailin Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Mixail Lavon Lotemin diplomatik missiyası başa çatır. APA-nın məlumatına görə, səfir artıq vida görüşlərinə başlayıb. Mədəniyyət və Turizm Nazirliyindən verilən məlumata görə, nazir Əbülfəs Qarayev bununla əlaqədar səfiri qəbul edib. Görüş zamanı Azərbaycan ilə İsrail arasında əməkdaşlığın vəziyyəti və perspektivləri müzakirə olunub, ikitərəfli münasibətlərin bütün sahələrdə, həmçinin mədəniyyət və turizm sahəsində inkişaf etməkdə olduğu bildirilib.

Daha sonra hər iki dövlət başçısının himayəsi ilə ölkələrimiz arasındakı münasibətlərin inkişaf dövrü keçirdiyi vurğulanıb, Əbülfəs Qarayev qarşılıqlı səfərlərin təşkili və turizm sahəsində mübadilənin gücləndirilməsinin zəruriliyini qeyd edib.

Sonda səfir Mixail Lavon Lotem Əbülfəs Qarayevə görüşə görə minnətdarlığını bildirib, nazir isə öz növbəsində səfirə gələcək fəaliyyətində uğurlar arzulayıb.

# 2012-ci ilin II rübündə tikinti işləri 0,6 faiz bahalaşıb

2012-ci ilin II rübündə tikinti işlərində qiymətlər əvvəlki rübə nisbətən 0,6 faiz bahalaşıb. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, rüb ərzində yerüstü tikililərdən yaşayış evlərinin tikintisi üzrə qiymətlər 0,7 faiz, sosial təyinatlı binaların tikintisi üzrə qiymətlər isə 0,5 faiz bahalaşıb. Yaşayış evlərindən 5 mərtəbəyə qədər yaşayış evlərinin tikintisi üzrə qiymətlər 0,9 faiz, 6 və çoxmərtəbəli yaşayış evlərinin və sosial təyinatlı binalardan ümumtəhsil məktəblərinin tikintisi üzrə qiymətlər 0,6 faiz, istehsal təyinatlı obyektlərdən isə sənaye obyektlərinin tikintisi üzrə qiymətlər 0,5 faiz bahalaşıb.

Rüb ərzində yol tikintisi üzrə qiymətlər 0,5 faiz, körpü tikintisi üzrə qiymətlər isə 0,4 faiz bahalaşıb.

BƏXTİYAR

# Bakıda DYP əməkdaşını döyüblər

Bakıda yol polisi əməkdaşı döyülüb. Bu barədə APA-ya Yasamal rayon Polis İdarəsindən bildirilib. Hadisə srağagün Mikayıl Müşfiq küçəsində qeydə alınıb. Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin əməkdaşı, leytenant Murad Ağamalıyev Naxçıvan sakini Sərvər Niftəliyevin idarə etdiyi "Mercedes" markalı maşını yol-hərəkət qaydasını pozduğu üçün saxlayıb. Sürücünün sənədləri yerində olmadığı üçün polis əməkdaşı avtomobili cərimə meydançasına aparmaq istəyib. Bu zaman sürücü ilə yol polisi arasında dava düşüb və S. Niftəliyev polis əməkdaşını döyüb. M. Ağamalıyev müxtəlif xəsarətlərlə xəstəxanaya yerləşdirilib. Hadisəni törədən S. Niftəliyev isə polis tərəfindən saxlanılıb.

Faktla bağlı araşdırma aparılır.

# Sahibə Qafarova: "Azərbaycanda möhkəm tolerantlıq mühiti var"

**Müsahibimiz millət vəkili, Bakı Slavyan Universitetinin prorektoru Sahibə Qafarovadır.**

***— Sahibə xanım, 3-cü çağırış parlamentin üzvü kimi, 2 ilə yaxındır deputat mandatı daşıyırsınız. Hazırda da parlament və parlamentarilər yay tətilindədirlər. İstər ötən dövr, istərsə də, yay tətili ərzində parlamentdə təmsilçisi olduğunuz şəmkirlilərlə bağlı hansı işləri görübsünüz,görürsünüz?***

— İlk öncə qeyd edim ki,millət vəkili seçildiyim Şəmkir rayonunda son illərdə çox işlər görülüb. Dövlət proqramlarının icrası nəticəsində müxtəlif problemlər artıq həllini tapıb. Hazırda Şəmkir rayonunun qazı, suyu, yolları, işığı var. Şəmkirə getsəniz, görərsiniz ki, rayon Bakının bəzi yerlərindən heç də geri qalmır. Rayonda sözün həqiqi mənasında böyük işlər görülüb və görülməkdədir. 1990-cı illərin əvvəllərində üzləşdiyimiz çətinliklər artıq geridə qalıb.

Bununla belə, sirr deyil ki, bəzi xırda məsələlər var ki, onlar da isnanları qayğılandırır. İnsanlar bizə müraciətlərində də bu qayğıların ı dilə gətirirlər. Bəli, bəzi məktəblərin, səhiyyə ocaqlarının və ya digər sosial-iaşə obyektlərinin ümumi səviyyəsi bizi qane etməyə , müəyyən xidmətlərin səviyyəsi narazılıq yarada bilər. Amma əmin olun ki, bunlar zamanla həllini tapan məsələlərdir.

Biz də əgər onların aradan qaldırılmasına azacıq olsa belə, kömək edə , vasitəçilik edə biliriksə, onda çox xoşbəxt olarıq. Seçicilərin müəyyən sosial problemlərinin həlli ilə bağlı gördüyümüz işlərə gəlincə, təbii ki, onlar var.

Sualınızla bağlı, bir məqamı da qeyd etmək istərdim ki, bəzən düzgün olmayan informasiya, doğru olmayan təbliğat cəmiyyətdə yanlış fikir formalaşdırır, insanların mövqeyinə mənfi təsir göstərir. Odur ki, bütün hadisələrin adını düzgün qoymaq lazımdır ki, vətəndaşla dövlət, vətəndaşla vətəndaş arasındakı münasibətlərdə problem, etimadsızlıq yaranmasın, insanlar doğru olmayan gözləntilər içərisində olmasın.

Təbii ki, millət vəkili o adı ona görə daşıyır ki, vətəndaşa xidmət etsin, onların problemlərini, qayğılarını həll etməyə çalışsın. Bu hər şeydən də əvvəl bizim vətəndaş mövqeyimiz, münasibətimizdir. Amma nəzərə almaq lazımdır ki, Milli Məclis qanunverici orqandır. Ölkədəki hakimiyyət bölgüsü də bunu tərənnüm edir. Parlament üzvlərinin də ən ümdə işi qanun yaradıcılığı, qanunları təkmilləşdirmək, insanlara daha yaxşı xidmət edən qanunların ərsəyə gəlməsinə nail olmaqdır.

Təbii ki, mən də digər həmkarlarım kimi çalışıram ki, qanunların qəbulunda, təkmilləşməsində fəal iştirak edim.

***— Bəzi millət vəkilləri tez-tez şikayətlənirlər, deyirlər ki, seçicilər bəzən onların səlahiyyətinə aid olmayan məsələlərlə onlara müraciət edirlər...***

— Bayaqkı sualda bu məsələyə toxunduq. Bəli, elə vaxt da olur ki, vətəndaşlar səlahiyyətimizdən kənar olan müraciətlər edirlər. Buna baxmayaraq, əgər gücümüz daxilindədirsə, təbii ki, onlara kömək edirik, problemlərinin həlli ilə məşğul oluruq.

Görürsən ki, vətəndaş bir məsələ ilə bağlı artıq Apelyasiya məhkəməsindən cavab alıb, amma yenə də həmin məsələni qaldırır, onun həllini tələb edir. Belə insanları da başa düşürəm, görünür qanunun tələbləri onu qane etmir. Amma hər halda insanlarla işləmək, onları dinləmək bizim borcumuzdur.

***— Seçicilərlə görüşlərinizi harada və necə təşkil edirsiniz?***

— Bir çox hallarda seçicilərlə, vətəndaşlarla görüşmək, onların problemlərini dinləmək, maraqlanmaq üçün mən onların yanına, kəndlərinə, qəsəbələrinə gedirəm, klublarda, məktəblərin akt zallarında görüşlər keçirirəm.



Həmçinin, Şəmkirin özündə qərargah fəaliyyət göstərir. Şəmkirdən seçilən millət vəkillərinin köməkçiləri orada otururlar, insanları qəbul edirlər. Seçicilərimiz bizə məktublarla da müraciət edirlər. Çalışırıq qaldırılan hər bir məsələyə həssas yanaşaq.

***— Qaldırılan problemləri necə, həll edə bilirsinizmi?***

— Seçicilər tərəfindən yönələn bütün məktublara cavab verilir. Mənim tərəfimdən dövlət qurumlarına yazılan məktublar cavablandırılır. Həmin qurumlar həm mənə cavab verirlər, həm də seçiciyə. Əgər onların həlli mümkündürsə, mütləq həll olunur. Hətta, bu mümkün olmadığda belə, insanları razı salan səbəblər göstərilməlidir.

***— Eyni zamanda, bəzi həmkarlarınız seçici problemlərinin həllində bir sıra məmurların maneçilik törətdiyini deyirlər...***

— Şəxsən mən özüm hələ belə problemlə üzləşməmişəm. Hara müraciət etmişəmsə, cavab almışam. Bu, o demək deyil ki, qaldırdığımız bütün problemlər həllini tapır. Xeyr, bunu iddia etmək düzgün olmazdı. Təbii ki, bəzi hallarda aldığımız cavab heç də müsbət olmur. Amma maneçilik törətmək istəyinə, laqeyd münasibətə rast gəlməmişəm.

***— Sahibə xanım, siz həm də Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətində təmsil olunursunuz. Bu baxımdan, bu qurumdakı fəaliyyətiniz haqqında da bilmək maraqlı olardı.***

— Mən Azərbaycanın AŞPA- dakı nümayəndə heyətinin üzvü kimi, artıq 2 ildir, orada fəaliyyət göstərirəm. Çalışıram ki, hər bir sessiyada fəal iştirak edim. Həm Azərbaycanla, həm də orada müzakirə edilən məsələlərlə bağlı münasibətimi bildirirəm və Azərbaycanın mövqeyini orada təmsil edirəm. Mart ayında AŞPA-nın Bərabərlik və Qeyri-Diskriminasiya komitəsinin iclasında Rasizm və Ksenofobiya alt komitəsinin sədri seçildim.

Hesab edirəm ki, bu, bir neçə cəhətdən bizim üçün əhəmiyyətlidir. Əvvəla, bu, onu göstərir ki, Azərbaycanda möhkəm tolerantlıq mühiti var və burada yaşayan müxtəlif xalqların nümayəndələrinin bütün hüquqları ən yüksək səviyyədə qorunur. Avropa ictimaiyyəti də bunu yüksək qiymətləndirir ki, məhz azərbaycanlı parlamentari bu alt komitəyə rəhbərlik edir.

Digər tərəfdən, bu onun göstəricisidir ki, Azərbaycan nümayəndə heyəti bu qurumda kifayət qədər effektiv fəaliyyət göstərir və onlara bu qurumun strukturlarına rəhbərlik etmək etimadı göstərilir. Ən nəhayət, bu bir millət vəkili olaraq, fərd olaraq, mənim üçün də çox əhəmiyyətlidir. Demək ki, mən həm dövlətimi lazımi səviyyədə təmsil edə bilirəm, həm də Avropa Şurasındakı fəaliyyətim qurumun özündə də razılıq doğurur.

Bildiyiniz kimi, Azərbaycan artıq 20 ildir ki, AŞPA-nın üzvü kimi qurumda kifayət qədər effektiv fəaliyyət göstərir. Bu qurumla əməkdaşlıq ölkəmizdə demokratik islahatların daha da dərinləşməsi, demokratik təsisatların inkişaf etdirilməsi, Avropa dəyərlərinin möhkəmlənməsi, insan hüquqlarının daha effektiv şəkildə qorunması prosesinə yardım edib.

Azərbaycan bu gün Avropa Şurası ilə ən müxtəlif sahələrdə qarşılıqlı-faydalı münasibətlər quraraq səmərəli əməkdaşlıq həyata keçirir. Təşkilata üzv dövlətlərlə əlaqələrin genişləndirilməsi ölkələrimizin bir-birinə daha da yaxınlaşmasına və qarşıya çıxa biləcək problemlərin aradan qaldırılmasına əlverişli zəmin yaradır...

***—Sizcə, Avropa Şurası Azərbaycanın problemlərinin həllinə həssas yanaşır,yoxsa?..***

—Təbii, bu qurum ölkəmizin əsas problemi olan Dağlıq Qarabağ münaqişəsini mütəmadi olaraq öz gündəmində saxlayır. Azərbaycan bu quruma üzv olan digər ölkələrlə də əməkdaşlığın daha geniş spektrlərini əhatə etməsi, genişlənməsi üçün əməli addımlar atır. Eyni zamanda, Azərbaycan da öz tarixi, mədəni dəyərləri ilə, Avropa ailəsinin zənginləşməsinə öz töhfəsini verməkdədir.

Eyni zamanda, bir sıra hallarda bu təşkilatın Azərbaycanda baş verən hadisələrə münasibətində müəyyən qeyri-obyektiv nüanslar müşahidə olunub və bunlar daha çox müəyyən şəxslərin qərəzliliyindən meydana gəlib. Ölkəmizin rəhbərliyi bununla bağlı etirazlarını dilə gətiriblər və müvafiq qurumlara çatdırıblar. İstərdik ki, bu hallar təkrarlanmasın və qurumla ölkəmizin əməkdaşlığına kölgə salacaq hansısa neqativ olaylar baş versin.

***— Sahibə xanım, siz həm də Bakı Slavyan Univertsitetinin beynəlxalq əlaqələr üzrə prorektoru kimi fəaliyyət göstərirsiniz. Həm universitet işi, həm də deputatlığı birgə aparmaq çətin deyil ki?***

— Bu, insanın özündən asılıdr. İnsan hansısa bir yeniliyə, dəyişikliyə doğru yönəlirsə, əvvəlcə özünün potensialını, hazırlığını nəzərə almalıdır. Yəni o qərər verməlidir ki, buna hazırdır ya yox. Burada da çoxlu nüanslar nəzərə alınır. Vaxt bölgüsü də bunlardan sadəcə biridir. Planlaşdırılmamış işin müvəffəqiyyəti yalnız şansa bağlı olur. Mən zəhməti sevən insanam və işimi planlı şəkildə qurmağı sevirəm. Düzdür, işin hamısını çatdırmaq asan deyil,amma çalışıram ki, işlərimi həll edim.

***— Son olaraq, gənclərin bilik səviyyəsi, dünyagörüşü, xarici dil bilgisi sizi qane edirmi?***

— Təbii ki, qiymətləndirmə nisbidir və mənim söylədiklərim də, söyləyəcəklərim də yalnız mənim fikrimi ifadə edir. Fikrimcə, bu gün gənclərimizin böyük potensialı var, onların önündə çox gözəl imkanlar açılıb, perspektivlər yaradılıb. Əksəriyyət də bu imanlardan yararlanırlar.

Amma onu da etiraf etməliyəm ki, bu gün bizim gənclər daha çox kitab oxumalıdırlar. Bu gün internetdən, sosial şəbəkələrdən hamımız istifadə edirik. Amma kitabı heç nə əvəz edə bilməz. Mən ilk növbədə bir müəllimməyəm. Həmişə istəmişəm ki, tələbələr kitabla oturub dursunlar. Tələbələr tam informasiyalı olmalıdırlar. Dünyagörüşünün də olması informasiyanın bolluğundan yaranır.

Tələbə dünya ədəbiyyatı ilə mütləq tanış olmalıdır. Çünki dünya ədəbiyyatını oxuyarkən, həm tarixi, həm mədəniyyəti, o xalqın mental dəyərlərini, tarixi keyfiyyətlərini o kitabda görə bilirsən...

**KAMİL**

# Omnia Taha: "Azərbaycan həmişə ərəb məsələlərinə, xüsusilə də Fələstin məsələsinə dəstək verib"

Ərəb Dövlətləri Liqası və Avropa ölkələri arasında əməkdaşlıq bir neçə səviyyədə artıb. İlk növbədə, regionda baş verən böhranlarla- əvvəl Liviya, sonda da —Suriya böhranı ilə əlaqədar olaraq ən yüksək səviyyədə siyasi koordinasiya mövcuddur". Bu açıqlama ilə Ərəb Dövlətləri Liqasının Avropa məsələləri üzrə direktoru Omnia Taha müsahibəsində deyib. O bildirib ki, Ərəb Liqasının ərəb regionunda artan rolu və ərəb ölkələrində etiraz dalğasına müsbət cavabı onu mühüm beynəlxalq oyunçuya çevirib: "İkinci növbədə, Avropa komissiyası və ƏDL Katibliyi arasında böhranın aradan qaldırılması və ona cavab, seçkilərdə müşahidə və monitorinq kimi sahələrdə potensialın yaradılması, qadınların hüquq və imkanlarının genişləndirilməsi və diplomatların hazırlanması kimi sahələrdə əməkdaşlığa güclü təkan verilib. Üçüncü növbədə, Ərəb Liqası noyabr ayında Avro-Ərəb ölkələrinin nazirlərinin ikili görüşünə ev sahibliyi edəcək. Bu tərəflər arasında əməkdaşlığa geniş imkanlar yaradacaq". Suriya məsələsində ƏDL-nın mövqeyinə toxunan O.Taha deyib ki, noyabr ayının 2-də zorakılığa son qoymaq üçün Suriya rejiminə təsir etmək məqsədilə Suriyanın Ərəb Liqasında üzvlüyünün dondurulmasından sonra noyabrın 16-ı görüş keçirildi və Suriyada atəşkəsi yoxlamaq üçün müşahidə missiyasının göndərilməsi başda olmaqla atlı bənddən ibarət plan təklif olundu: "Çox təəssüf ki, bu missiya öz məqsədinə nail ola bilmədi, çünki Suriyada qırğınlar dayanmadı. Sonra Ərəb nazirlər şurası belə bir nəticəyə gəldi ki, ərəb planına Suriya rejimi tərəfindən hörmət olunmur. Bunun ardınca Ərəb Liqası beynəlxalq ictimaiyyətdən kömək istədi. Beləcə BMT TŞ-da qətnamə qəbul olundu və BMT-nin sabiq baş katibi Kofi Annan ƏDL və BMT-nin birgə xüsusi elçisi təyin olundu. O, tərəflər arasında zorakılığın dayandırılması ilə başlayan və problemli olmayan müxalifətlə rejimin bir neçə nümayəndələrini bir araya gətirən vahid milli dövlətlə başa çatan bir plan qəbul etdi. P5+ BMT, Avropa Birliyi, ƏDL və İƏT-nın Rusiya və Çinin iştirakı ilə Cenevrədə baş tutan görüşündən və Suriyada keçid dövrünə dair müqavilə imzalandıqdan sonra ümid etməliyik ki, siyasi proseslə Suriya böhranını aradan qaldırmaq hələ də mümkündür. Əgər Bəşər Əsəd bu son imkandan da istifadə etməsə, onda biz üç ssenari ilə üzləşə bilərik: inqilabın uğuru (Qəddafinin taleyi), Yəmən variantında olduğu kimi Əsəd və ailəsinin təhlükəsiz olaraq çıxarılması, ya da vətəndaş müharibəsi". ƏDL ilə Azərbaycan arasında əməkdaşlıq perspektivlərindən danışan xanım Taha deyib ki, ərəb dünyası ilə Azərbaycan arasında tarixi əlaqədar həmişə güclü olub: "Azərbaycan İpək Yolunun üzərində yerləşir və dini və mədəni əlaqələr dərin tarixə köklənib. Bu səbəbdən ƏDL Azərbaycan ilə müxtəlif sahələrdə əməkdaşlığa yol açan memorandum imzalayıb. Azərbaycan bu il Riyad şəhərində baş tutacaq mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq üçün ərəb forumunun üzvüdür. Bu forumun üçüncü hazırlıq görüşü sentyabr ayının birinci yarısında Bakıda baş tutacaq".

Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvü və region ölkəsi kimi İran və Suriya problemlərini həll etmək üçün hansı rola malik olmasına gəlincə o bildirib ki, ərəb ölkələri Azərbaycana BMT TŞ-a üzv olmaqda dəstək oldular: "Çünki Azərbaycan həmişə ərəb məsələlərinə, xüsusilə də Fələstin məsələsinə dəstək verib. Suriya məsələsinə gəldikdə isə, Azərbaycan həmişə ərəb mövqeyini dəstəkləyib və Suriya böhranı ilə bağlı qəbul olan TŞ qətnamələrinə səs verib və onların lehinə mövqe nümayiş etdirib. Bundan əlavə, baxmayaraq ki İranın nüvə məsələsi ərəb ölkələri üçün mühüm məsələdir, çünki İran onlara qonşudur və məsələnin gərginləşməsi regionun bütün ölkələrinə, əsasən də körfəz ölkələrinə təsir edəcək.

Fələstin məsələsi indi ərəb ölkələrinin gündəmində olan ən vacib məsələdir və biz ümid edirik ki, Azərbaycan Fələstinin BMT-yə tam üzvlüyünün lehinə səs verəcək".

**PƏRVANƏ**

# Əflatun Amaşov ABŞ-ın Azərbaycandakı səfirliyinin yeni mətbuat katibi ilə görüşüb

ABŞ-ın Azərbaycandakı səfirliyinin yeni təyin olunmuş mətbuat katibi Conas Stüart Mətbuat Şurasında (MŞ) olub.

MŞ sədri Əflatun Amaşov rəhbərlik etdiyi qurumun missiyası barədə qonağa ətraflı məlumat verib: "Media-ictimaiyyət, media-hakimiyyət münasibətlərinin tənzimlənməsi istiqamətində fəaliyyət göstərən Şura başlıca olaraq vətəndaşlardan, ayrı-ayrı idarə, müəssisə və təşkilatlardan daxil olan şikayətləri araşdırır, buna uyğun olaraq qərar və rəylər çıxarır. Həmin sənədlərdə KİV-lərin peşə prinsiplərinə riayət edilməsi ilə bağlı müvafiq tövsiyələr yer alır. Şuranın qərar və rəyləri ictimai qınağa əsaslanır". ABŞ-ın Azərbaycandakı Səfirliyinin ölkəmizin media qurumları ilə daim sıx təmaslar saxladığını deyən Ə.Amaşov qarşılıqlı əməkdaşlığın daha da dərinləşəcəyinə əminliyini ifadə edib. C. Stüart Bakıda olduğu müddətdə ilk vəzifəsinin Azərbaycanın KİV-ləri ilə tanışlıqdan ibarət olduğunu vurğulayıb. Səfirliyin ölkə mediası ilə münasibətlərindəki əməkdaşlıq ənənəsinin daha da gücləndirilməsi istiqamətində işlər görüləcəyini diqqətə çatdırıb. O, Mətbuat Şurası kimi qurumların dünya miqyasında medianın özünütənzimləməsi missiyasının reallaşmasında müstəsna rol oynadıqlarını bildirib. Bu baxımdan Azərbaycanda eyni adlı qurumun mövcudluğunu yüksək dəyərləndirib. Görüşdə ABŞ Səfirliyi ilə Mətbuat Şurası arasındakı perspektiv əlaqələrə dair fikir mübadiləsi aparılıb.

ABŞ səfirliyinin mətbuat xidmətindən qəzetimizə verilən məlumata görə, Conas Stüart öz vəzifəsinin icrasına avqustun 6-dan başlayacaq. O qeyd olunan postda Kit Bini əvəzləyəcək. Qeyd edək ki, Conas Stüart bundan əvvəl ABŞ-ın Naqoyadakı (Yaponiya) konsulluğunda işləyib.

**S.MÜRVƏTQIZI**

# YAP Gənclər Birliyinin "Yay məktəbi" layihəsi keçirilib

Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin "Yay məktəbi" layihəsi uğurla başa çatıb. İyul ayı ərzində həyata keçirilən bu layihə gənclərimiz tərəfindən yüksək qiymətləndirilir. YAP Gənclər Birliyinin sədri Seymur Orucovun sözlərinə görə, "Yay məktəbi"ndə partiyanın üzvü olan yüzlərlə fəal gənc iştirak edib. Bu layihənin 2007-ci ildən həyata keçirildiyini xatırladan S.Orucovun sözlərinə görə, tədbirin keçirilmə qaydaları daha da təkmilləşdirilib: "Layihədə iştirak edən gənclər həm Bakını, həm də bölgələri təmsil ediblər. Hər il olduğu kimi bu dəfə də "Yay məktəbi" ölkəmizin gözəl guşələrində təşkil olunub. Gənclərin yerləşdiyi otellərdə yüksək şərait var, onlar bu otellərin bütün xidmətlərindən istifadə edə biliblər". Onun dediyinə görə, layihənin məqsədi gənclərin asudə vaxtlarını yaxşı keçirmələri, bir-birilə təmas, münasibət qurmaları, eləcə də onlar üçün intellektual və əyləncəli yarışlar təşkil etməkdir.

Eyni zamanda, "Yay məktəbi"ndə YAP-ı təmsil edən deputatlar, Milli Məclisin komitə sədrləri, eləcə də hökumət nümayəndələri gənclərin qonağı olublar. Onlar müxtəlif mövzular ətrafında fikirlərini bölüşüb, gəncləri maraqlarından suallara cavab veriblər: "Hesab edirəm ki, "Yay məktəbi" gənclərimizin intellektual səviyyəsinin daha da yüksəlməsi və asudə vaxtlarının səmərəli keçirilməsi baxımından əhəmiyyətli layihədir". S.Orucov bildirib ki, bu layihə növbəti illərdə də davam edəcək.

**S.QARAYEVA**

# Gənclər və İdman Nazirliyindən daha bir tədbir

Gənclər və İdman Nazirliyi və "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyi tərəfindən avqustun 10-15-də Şəki şəhərində "Gənc Ailələr üçün Yay Məktəbi 2012" təşkil olunacaq. Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, yay məktəbi iştirakçıları seçim əsasında müəyyənləşdiriləcək və 35 yaşadək olan bütün gənc ailələr burda iştirak edə bilərlər. Layihənin proqramı iki hissədən — Təlim-tədris və Mədəni-idman proqramlarından ibarət olacaq.Təlim-tədris proqramı çərçivəsində iştirakçılara ailə daxili münaqişələr və onların aradan qaldırılması yolları, valideyn — övlad münasibətləri, körpəyə qayğı və digər mövzularda təlimlər keçiriləcək. İştirakçıların asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə Mədəni-idman proqramı təqdim olunacaq. Mədəni-idman proqramı özündə təşkilata məxsus "Kod Da Vinçi" komandaqurucu oyunu və digər komandaqurucu, intellektual və idman tədbirlərini birləşdirəcək: "Bu layihə ümumiyyətlə Azərbaycanda gənc ailələr üçün təşkil olunan ilk yay məktəbidir. İldən-ilə ölkədə boşanmaların sayının artmasını nəzərə alaraq bu yay məktəbinin keçirilməsinin aktuallığını artırır. Məktəb gənc ailələrin maarifləndirilməsi, onlar arasında ailə dəyərlərinin təbliği və möhkəmləndirilməsi məqsədi daşıyır".

**S.QARAYEVA**

# Azərbaycanlı diplomatlar Oklahoma ştatında konfransda iştirak ediblər

Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov və hərbi attaşenin köməkçisi Şəfi Sultanov Oklahoma ştatı Milli Qvardiyasının konfransında iştirak ediblər. Qeyd edək ki, bu ştatın hərbçiləri Azərbaycan Silahlı Qüvvələrinin tərəfdaşlarıdır. Səfir E.Süleymanov çoxsaylı konfrans iştirakçıları qarşısında çıxış edərək Azərbaycan tərəfi ilə səmərəli əməkdaşlığa görə ştatın Milli Qvardiyasına minnətdarlığını bildirərək bu proqramın bütövlükdə Azərbaycan-Amerika münasibətlərinə müsbət təsir göstərdiyini vurğulayıb.

Diplomat Azərbaycanın nailiyyətlərindən danışarkən Azərbaycan dövlətçiliyinin təşəkkülü naminə ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətini xüsusi vurğulayıb. Təntənəli axşam ziyafətində Milli Qvardiyanın komandanı general Mayls Dirinq regional lider kimi Azərbaycanın rolunu yüksək qiymətləndirib və diplomata "Thunderbird" medalını təqdim edib. Səfirliyin əməkdaşları, həmçinin yerli hakimiyyət orqanlarının, işgüzar dairələrin və ictimaiyyətin, o cümlədən ştatın hindu tayfalarının nümayəndələri ilə görüşlər keçiriblər. Görüşlərdə ikitərəfli iqtisadi və siyasi əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olunub.

Bundan başqa, səfir Xəzər regionunun inkişafı mövzusunda "Türküaz" mərkəzi tərəfindən təşkil olunmuş seminarda çıxış edib. Tədbirdə ştatın "Eurovision-2012" mahnı müsabiqəsi çərçivəsində Bakıda olmuş ictimai xadimləri iştirak ediblər.

Səfər zamanı Azərbaycan diplomatları 1995-ci ildə Oklahoma Sitidə terrorçuluq aktının qurbanlarına ucaldılmış xatirə abidəsini ziyarət ediblər.

**S.MÜRVƏTQIZI**

# Bölgələrdə yeni məktəb binaları inşa olunur

Bölgələrdə yeni məktəb binaları inşa olunur. Sentyabrın 15-dək istifadəyə veriləcək yeni məktəb binaları təhsilin yüksək səviyyədə təşkili üçün hər cür şəraitlə təmin olunacaq. Təhsil Nazirliyindən verilən məlumata görə, hazırda Yevlax rayonunda tədris müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni məktəb binalarının tikilməsi, mövcud məktəblərin təmir olunması sahəsində işlər davam etdirilir. Hazırda rayonda şəhər 2 nömrəli tam orta məktəb üçün 960, Aran qəsəbə 2 nömrəli tam orta məktəb üçün 360, Salamabad kənd tam orta məktəbi üçün 180 şagird yerlik yeni binaların tikintisi başa çatmaq üzrədir. Dövlət vəsaiti hesabına inşa olunan hər üç məktəb yeni tədris ilində istifadəyə veriləcək. İlin sonunadək isə daha beş məktəbin tikintisinə başlanması nəzərdə tutulub. Bunlar şəhər 10 nömrəli tam orta məktəb, Yuxarı Bucaq kənd ümumi orta məktəb, Əcəmi kənd ümumi orta məktəb, Bünyadabad və Dəllər kənd ibtidai məktəbləridir. Qeyd edək ki, son 8 ildə Yevlaxda 13 yeni məktəb binası, 640 şagird yerlik 32 əlavə sinif otağı tikilib, 10 məktəb əsaslı təmir edilib.

Məlumatda bildirilib ki, Göygöl rayonunda da Təhsil Nazirliyinin sifarişi ilə 220 şagird yerlik Zurnabad, 160 şagird yerlik Qızılca kənd tam orta məktəblərinin, Göygöl Rayon İcra Hakimiyyətinin sifarişi ilə isə 360 şagird yerlik Quşqara və 80 şagird yerlik Firuzabad qəsəbə tam orta məktəblərinin binaları sürət və keyfiyyətlə inşa olunur. Sentyabrın 15-dək istifadəyə veriləcək yeni məktəb binaları təhsilin yüksək səviyyədə təşkili üçün hər cür şəraitlə təmin olunacaq. Bu dörd məktəb binasının hər birində geniş, işıqlı kitabxana, fizika və kimya laboratoriyaları, kompüter, fənn kabinetləri, idman zalı, eləcə də mərkəzləşdirilmiş istilik sistemi quraşdırılması nəzərdə tutulub. Hazırda həmin yeni məktəb binalarında son tamamlama işləri aparılır.

**S.QARAYEVA**

# Arif Hacılı: "İctimai Palata vahid namizədlə bağlı müzakirələri hələlik gündəlikdən çıxarıb"

"İctimai Palatada vahid namizəd məsələsinin indidən müəyyənləşdirilməsi ilə bağlı məsələ qurumun əsas mövzular sırasından çıxarılıb". Bu açıqlamanı APA-ya Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı verib. İctimai Palatanın vahid namizədinin müəyyənləşdirilməsinə dair aparılan müzakirələrin səngiməsinin səbəbləri haqqında danışan A. Hacılı bildirib ki, bu mövzunun müzakirəsinə başlamağın hələ tez olduğu qənaətinə gəliblər: "Vahid namizəd məsələsinin müzakirəsi hələ tezdir və fəsadlar yaradır. Belə mövqelərə hörmətlə yanaşmaq lazımdır. Çünki istənilən halda hansısa təşəbbüsdən doğan islahatın fəsadları da olur".



**“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə**

# Plüralizm və müasir media: reallıqlara və perspektivlərə baxış

## PROFESSOR CAHANGİR MƏMMƏDLİ İLƏ SÖHBƏT

*Sevinc MÜRVƏTQIZI*

*(Əvvəli ötən saylarımızda)*









— Bu gün əslində ən çox məlumat verən, dərinlərə girən və informasiyanı yerin tərkindən çıxaran qəzetlərdir. Onlayn jurnalistikası nə qədər oxunaqlı olsa da, istifadəçilərinin sayı nə qədər artsa da, qəzetin oxucusunun sayına çata bilməz. Çünki qəzeti oxumaq asandır. Qəzet dizin üstündə noutbuk tələb eləmir. Telefonda gözünü zilləyib kiçik hərflərlə məlumat oxumağa məcbur olmursan. Ona görə də hələlik qəzet jurnalistikasında informasiya daha çoxdur. Ancaq qəzet jurnalistikasında dəqiqliyə, qərəzsizliyə riayət etmək yavaş-yavaş azalır. Ötən əsrin 90-cı illərinin ortalarında buna çox əməl olunurdu, indi isə artıq bu məsələyə az riayət edilir. Hər bir mətbuat orqanına, telekanala qiymət verərkən onun informasiya siyasətinə də diqqət eləmək lazımdır. Məsələn, müxalifət qəzetlərinin informasiya siyasəti hakimiyyətə narazı qüvvələrə ünvanlanır. Buna da təəccüblənmək lazım deyil. Onların işi budur. İqtidar qəzetləri də hakim partiyanın ideologiyasını həyata keçirmək, Azərbaycan dövlətinin təməl prinsiplərini qorumaqla məşğuldur. Bu cür qəzetlər olmasa, ölkədə böyük bir xaos əmələ gələr. Bunu başa düşmək istəməyənlər də var. Təəssüf ki, Azərbaycanda hətta ərəb baharını arzulayan qüvvələr, mətbuat işçiləri var. Bu, vətəndən və vətəndaşlıqdan çox-çox uzaq olan bir şeydir. Mən buna son dərəcə narahat oluram. Hər şey ölkənin içərisində həll olunmalıdır. Mən xaricdən heç bir qüvvənin Azərbaycana təsirini qəti şəkildə istəmirəm. Bu, oxucularımızdan üzr istəyirəm, öz ailəsini idarə eləyə bilməyən adamın kiməsə müraciət eləməsinə oxşayan bir situasiyadır. Kiminsə diqtəsi ilə heç nə eləmək olmaz, neyləyiriksə, özümüz eləməliyik. Azərbaycan dövləti və dövlətçiliyi də buna xidmət göstərir və kimsənin narahatlığı yoxdur.

***— Qəzet və televiziyanın elektron KİV-ə uduzduğunu deyənlərin sayı çoxalır. Hətta bəziləri lap irəli gedərək yaxın gələcəkdə qəzet erasının bitəcəyini proqnozlaşdırırlar...***

— Hələlik, yox. Mən bu fikirlərlə razılaşmıram. Ola bilər ki, qəzet yavaş-yavaş uduzmağa doğru gedir, amma televiziya yox. Qəzetlər uduzmaq anını görən kimi, tamamilə uduzanda keçəcək elektron varianta. Onlayn jurnalistikadan danışanda qeyd eləmək lazımdır ki, elektron informasiya vasitələri sistemində fəaliyyət göstərən portallar, saytlar çox müstəqildirlər, bu baxımdan daha çox aktuallıq kəsb edir və hamını maraqlandırır.

Sualınızın ikinci tərəfinə gəlincə, mənim fikrimcə, qəzet həmişə öz yerini qoruyub saxlayacaq. Qəzetə meyilli adam olduğuma görə belə düşünmürəm. Ona görə ki, qəzet çox asan bir şeydir. Qəzet çox praktikdir, onu saxlaya bilirsən, dostuna ötürürsən, tələbələrinə verirsən və sair. Qəzetdə hansısa bir yazın çıxanda cəmiyyətdə tez əkssəda doğurur. Amma internetdə belə bir imkanlar yoxdur. Ölkənin hər yerində tamamilə internet imkanları olanda da zənnimcə, qəzet aktuallığını saxlayacaq. Amma bu günlərdə bir informasiya aldım. “Vaşinqton Post” qəzeti elan edib ki, 2 ya 3 ildən sonra çap versiyasını dayandıracaq. Açığı, belə bir xəbər məni narahat elədi. Fikirləşirəm ki, “Vaşinqton Post” kimi transnasional qəzet tamamilə elektron versiyaya keçərsə, onda optimistlərin vəziyyəti ağırlaşır. Prinsipcə qəzet ola bilsin ki, bizim kimi ölkələrdə hələ uzun müddət aktuallığını saxlayacaq. Azərbaycan cəmiyyəti sürətlə noutbuklaşsa da, bizim adamlar ən yeni texnikanı təxminən 20-30 ilə tam qəbul edir. Məsələn, bizdə yeni olan nələrinsə qəbulu ilə bağlı bir məsələni misal çəkim. O vaxtlar jurnalistlərlə bağlı bilirsiniz necə müzakirələr keçirilirdi? Jurnalist cins şalvar geyinə bilərmi? Təsəvvür edirsinizmi, dünyanın belə vaxtları vardı...Sonra razılaşdılar ki, bəli, jurnalistlər cins şalvar geyinə bilər, çünki bəzən vaqondan tullanmalı olurlar, çəpər aşmalı olurlar və sair. Yeniliklər nə qədər ləngisə də, gələcək. Gələcək onlayn jurnalistikasınındır. Güman edirəm ki, onlayn jurnalistika qanunla tənzimlənsə yaxşıdır. Çünki bəzən internetdə elə informasiyalar yayırlar ki, doğrudan da çox ciddi narahatlığa səbəb olur. Faktlar bunu göstərir. Bir vətəndaş kimi narahatlığım var ki, internet jurnalistikasını da bu qədər sərbəst buraxmaq olmaz. Qanun çərçivəsində hər şey tənzimlənsə yaxşıdır. Onlar da müəyyənləşdirərlər ki, qanun çərçivəsində bunlar hansı informasiyadan imtina edə bilərlər, hansını sayta qoya bilərlər. Amma indiki halda onlayn jurnalistika ideal vəziyyətdə azad jurnalistikadır.

***— Bu gün insanlar sosial mediada- sosial şəbəkələrdə özlərini daha aydın ifadə edirlər, hadisələrə daha aktiv və operativ reaksiya verirlər...***

— Doğrudur. Sosial mediada insanlar öz fikirlərini, düşüncələrini istədikləri kimi ifadə edə bilirlər. Burada o qədər müxtəliflik olur ki, onların içərisindən nəsə seçmək olur. Amma bir cəhət də var ki, müxtəliflik həddən artıq çoxdur, lazımlı nəsə seçmək çətinləşir. Bir məqamı deyim, bəlkə oxucularımıza da təəccüblü görünər. Azərbaycanda bir televiziyanın mövcud olduğu vaxtda mənim aldığım informasiya bəlkə də indi saytlardan, qəzetlərdən və telekanallardan aldığım informasiyadan çox idi. İndi bu qədər informasiya bolluğunda sanki xəbər tapmırsan. Vaxtilə kinoteatrda bir filmə baxıb 10 gün onu müzakirə edərdik. İndi telekanallarda bir filmə baxırlar, reklam fasiləsində çevirib o birisinə baxırlar. Tamamilə məzmunsuz bir dünya meydana gəlib. Bu da sosial şəbəkələrə oxşayır, bu tipli şeydir. İnformasiya çoxdur, amma onun içindən bizə seçməyi diqtə edən bir məqam yoxdur. Bu mənada sosial mediaya marağım azdır.

***— Niyə sosial şəbəkələrdə bizim insanlarımız plüralist fikirlərini, azad düşüncələrini daha çox gizli adlarla-niklərlə verməyə meyillidirlər?***

— Birinci səbəb budur ki, biz hələ söz azadlığına tam öyrəşməmişik. O vaxtlar sovet hökuməti hələ dağılmamışdı, hələ bu barədə sadəcə söz-söhbət dolaşırdı. Qorbaçovun yenidənqurma prosesi başlamışdı, demokratiya sözü çox hallanırdı. Onda belə bir lətifə çıxmışdı; biri tanışına zəng edir ki, “Pravda” qəzetinin baş məqaləsini oxumusanmı? Müsahibi yox deyir. Məqalə haqqında danışan deyir ki, telefonla demək istəmirəm, gəlim, danışaram. Təsəvvür edin ki, insan qəzet səhifəsində çıxan yazını telefonda deməyə narahatlıq keçirir. Görün, biz sovet dönəmində senzuradan, qadağalardan o qədər qorxmuşuq ki, bu hələ də zehnimizdən, düşüncəmizdən çıxmır. Cavan nəsil məni əvəz edəndən, o demokratizimin, plüralizmin adını dəqiq ifadə edəndən sonra həqiqi söz azadlığından ehtiyat etməyəcəyik. Amma insanın, xüsusilə də jurnalistin içində bir senzura olmalıdır. O vicdan senzurasıdır. Vicdan prinsipi ilə yaşayan insan vicdansız informasiyanı saytına, qəzetinə, sosial şəbəkəyə qoymaz. Hazırda bir qrup tamamilə radikal şəkildə nə istəsə onu eləmək arzusundadır, bir qrup da qorxur nələrdənsə. Hələlik ehtiyat edənlərin sayı daha artıqdır, ona görə də harasa bir şərh də yazanda adlarını bildirməyə ehtiyat edirlər. Sosial şəbəkələr bəlkə də gənclərin tanışlığa, bir-birilə ünsiyyət qurmağına kömək edir. Amma oradakı çoxluqdan bəhrələnmək çətindir.

***—Yeri gəlmişkən, hansısa sosial şəbəkədə təmsil olunursunuz?***

— Yox, heç bir sosial şəbəkədə yoxam. Mənim sosial şəbəkəm tələbələrimdir. Əgər mənim auditoriyam olmasa dərd çəkib ölərəm. Tələbələrim mənim həyatımdır. Bir gün dərsə girməyəndə elə bil nəsə itirirəm. Onlarla mən çox sərbəstəm. Jurnalistika fakültəsində metodiki şuranın sədriyəm. Müəllimlərdən tələb eləyirəm ki, metodikaya əməl eləsinlər. Amma auditoriyada qapını bağlayıb dərsə başlayandan sonra mənim öz metodikam var. Tamamilə öz istədiyim şəkildə dərs keçirəm.

**(Ardı var)**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

# Dost haqqında həyat hekayəti

## (Vəkil Ağababayevin 70 yaşına gecikmiş yazı)

*Ağacəfər HƏSƏNLİ*

Doğulduğu tarix qanlı ikinci dünya savaşı zamanına təsadüf etdi. Lerikin Kirəvud kəndinin başqa başıpapaqlıları kimi onun atası Əli kişini də tozlu-tozanaqlı “gedərgəlməz” yollar uddu. Vəkil böyüyüb boy atandan, dili kəlmə kəsəndən o qanlı illəri qarğıdı, ata niskilini ana-bacı unutdursa da, həsrət bitib-tükənmədi. Bəzən heç ad gününü keçirtməyi lazım bilmədi.

**Mənim doğulduğum il —**
**naməlum bir əsgərin**
**adı, ünvanı oldu.**
**Mənim doğulduğum il —**
**əsgərlər də doğuldu,**
**səngərlər də doğuldu.**
**Qəlpələr də doğuldu —**
**güllələr də doğuldu,**
**lülələr də doğuldu.**

Vəkil ailənin yeganə oğul övladı olsa da, ağılda, fərasətdə də tək idi, Tanrı ondan yar-yaraşığı, istedadı əskik eləməmişdi. Kənd məktəbində də, Lerik qəsəbə orta məktəbində də (o vaxt elə adlanırdı) oxuyanda kitab əlindən düşmədi. Bütün fənləri eyni qaydada mənimsəyən bu bəstəboy oğlan tezliklə müəllimlərin sevimlisinə çevrildi. Ancaq onu başqalarından fərqləndirən təkcə savadı, biliyi, fəhmi, qabiliyyəti deyildi. Həm də qeyri-adi talantıydı. Nədən yapışırdı, o saat öhdəsindən gəlirdi, onun üçün bağlı qapı, sirli-sehirli iş söhbəti yox idi. 14-15 yaşlarından mənsur şeirlər, lirik nəzm nümunələri uydurur, saatlarla Azərbaycan və rus dillərində onları ifa eləməkdən yorulmur, hər kəsi heyran qoyurdu.

Ailənin dolanışıq vəziyyəti qənaətbəxş deyildi, ona görə hərtərəfli parlamağa başlayan bu yeniyetmə istedad orta məktəb attestatı alan kimi ali məktəb qapısına doğru yüyürmədi. İstehsalat həyatına tərəf addım atdı. Bakı Baş Tikinti İdarəsinin müxtəlif obyektlərində gücünü sınadı. O, əla suvaqçıydı, sənətinin kamil ustasıydı. İstehsalatda bərkiyir, yaxşı qazanc götürür, aclıq-səfalət illərini doğma anasına unutdururdu. Çox keçmədən bu talantlı gəncin uğurları bütün respublikaya səs saldı. Həddən ziyadə enerjili, anadangəlmə natiq Vəkil baş idarənin fəxriydi, şəkli qabaqcıl istehsalat ustaları ilə yanaşı vurulur, iclas və yığıncaqlarda fəallığından qalmır, sözünün qabağında söz gətirən tapılmırdı. O illərdə universitetin geologiya-coğrafiya fakültəsinə istehsalatdan ayrılmamaqla qəbul olundu. Haqqında “Natiqlik məharəti” adlı publisistik kitab çıxdı, adı ölkə gənclərinə nümunələr sırasında çəkildi. Bakıda və Moskvada ölkə gənclərinin ali məclislərində kürsülərə sinə gərdi...

Bir dəfə Vəkil müəllimlə həmsöhbət olarkən dedi ki, doğulduğu Kirəvud kəndinin sakinləri İranın Qaradağ mahalından Qaradağlı kəndindən köç edib gəliblər. Sonra özünəxas şəkildə dədəbaba yurdunun adının etimologiyasını izah etdi. Onun versiyasına görə “Kirəvud” kəlməsi kökünü “kirəyurd” sözündən götürüb. Ulu babaları Dreğ mahalının indiki məlum ünvanına köçərkən həmin torpağı satın alıblar, ondan ötrü müvafiq adamlara pul ödəyiblər. Uzun müddət keçəndən sonra “kirəyurd” toponimi ilkin mənasını itirib. Kiçicik oba böyüyüb, iri yaşayış məskəninə çevrilib və Kirəvud adlandırılıb.

***

XX əsrin 60-70-ci illər arası orta məktəb dövrüm, oyanış çağlarım idi: hardan bir şeir parçası eşidirdim yapışqan kimi beynimə yapışırdı. Bu o zaman idi ki, onda Lerikdə çıxan “Bolluq uğrunda” qəzetində Vəkil Ağababayev imzası da görünməyə başlamışdı. Qəzetin şablon saylarını qoyaq kənara, şənbə icmallarını, ədəbiyyat səhifələrini xüsusi həssaslıqla izləyirdim. Vəkilin dərc olunmuş payız etüdləri, durna köçünü vəsf edən mənsur şeirləri mənə ləzzət verirdi. Nəsrin və şeirin təhlillərinə həsr edilmiş rəyləri də acgözlüklə oxuyur, sonda həsədlə “Vəkil Ağababayev” imzasını xəfifcə pıçıldayıb özüm-özümə tələffüz edirdim...

Tələbə oldum, gözlənilmədən birbaşa ölkə mətbuatına yol tapdım. “Ədəbiyyat və incəsənət”, “Azərbaycan gəncləri”, “Bakı”, “Kənd həyatı” kimi qəzet və jurnallarda şeirlərim işıq üzü gördü. İndiki kimi yadımdadır: üçüncü kursda oxuyurdum. Bir gün təsadüfən Sahil metrosunun (o dövrki 26-lar) qarşısında Vəkil Ağababayevlə görüşdüm. O, sinif yoldaşı, mərhum alim Əminağa İsgəndərovu və riyazıyyatçı Sərxan Feyziyevi gözləyirdi. Yenicə söhbətə başlamışdıq, eyni vaxtda Əminağa müəllim də, Sərxan müəllim də peyda oldular. Adımı soruşdu, deyən kimi “Sən o şeir yazan Ağacəfərsən?” — deyib gözünü üzümə dikdi. Mən onun sözünü təsdiqlədim. Bu dəfə o, təşrif gətirənlərə “bu oğlan çox maraqlı şairdi, hərdən imzasının altında doğulduğu Rvarud kəndinin də adına rast gəlmişəm” — söylədi və hər üçü məni çay içməyə dəvət elədi.

Həmin dövrdə Vəkil Əli oğlu qəzetdə işləmirdi, rayon partiya komitəsində təlimatçıydı. Ali partiya məktəbində (hazırki politologiya)- təhsil alırdı. İlk gündən onun nə qədər mehriban, istiqanlı, dostcanlı olduğunu hiss etdim. Ayrılıq məqamı gələndə “bax, münasibətimizin təməli tədricən qoyulub, bu gündən bir yaxşı dost-şair imzasını həmişə mətbuatda izləyəcəyəm. Lerikdən istedadlar çıxıb, ancaq hələ görkəmli şairimiz yoxdu, gərək sən öz imzanla bu boşluğu doldurasan, qədəmlərini bərkidəsən, yaxşıca şöhrət tapasan” — tövsiyəsini verdi.

Və beləliklə, Vəkilli günlərimin bünövrəsi qoyuldu.

Mənim 80-ci illərin əvvəllərində “Arxamca atılan su” adlı ilk şeir kitabım “Yazıçı” nəşriyyatında çap olundu. Daha çox sevinən, qürur hissi keçirən Vəkil Ağababayev idi. Onun ilk kitabımı dükandan alıb mənim əvəzimdə avtoqraf yazıb tanış-bilişinə necə həssaslıqla, fəxrlə payladığını qulağımla eşitmişəm. Bunu yoldan keçən saxta adam yox, qəlbən yerinə-yurduna bağlanan, torpağının adamları ilə iftixar hissi keçirən, talantları ilə öyünən nurlu, zəkalı insan edə bilər. Yeri gəlmişkən, kitabçadakı şeirlərdən biri də Vəkilə həsr olunmuşdu. Mən Vəkil müəllimin Lerikdəki xudmani malikanəsində haçan olarkən, o, həvəslə məni öz otağına aparar, zəngin kitabları ilə



tanış edər, müxtəlif görkəmli şair və yazıçıların avtoqraflarını göstərər, kitabların bağışlanma tarixlərini dəqiqləşdirərdi. Həmin rəflərin birində sovet dönəmindən yarpaq qalınlığında çıxan kitablarım yerləşirdi. O, özünə ithaf olunan şeirinin səhifəsini açmış, rəfdə səliqə ilə şüşənin altında qoymuşdu: qonaq-qaralı evinə kimsə təşrif gətirən kimi (o evin qapısı həmişə hamının üzünə açıqdır) mütləq söhbət hərlənib-fırlanıb gəlib axırda şeir müəllifinin üstünə çıxırdı.

Vəkil Ağababayev erkən gənclik çağlarında dostluq, qardaşlıq elədiyi görkəmli dövlət xadimi, qələm-söz adamı Həsən Əziz oğlu Həsənova həmişə diqqət yetirir, onu mərasim və məclislərinin başında otuzdururdu. Hazırda diplomatik fəaliyyətini uğurla davam etdirən, Avropada ölkəmizin üzünü ağardan Həsən müəllim o zaman Vəkilin hər çağırışını eşidir, sadə el adamına, köhnə dostuna məhəbbətini əsirgəmirdi. Bu sağlam dostluq hələ də davam edir.

Ümumiyyətlə, Ağababayevin dostluq xəritəsinin dairəsi genişdir: Xəlil Rza, Məmməd Araz, Əli Kərim, Fikrət Qoca, Məmmədhüseyn Əliyev, Əlisa Nicat, Şəkər Aslan, Vaqif Hüseynov, Ramiz Rövşən, Ələkbər Salahzadə, Novruz Nəcəfoğlu və başqa sənət adamları ilə mütəmadi görüşən qəhrəmanımız mütaliəsindən qalmır, ədəbiyyat oxumaqdan doymur, söz ustaları ilə söhbətlərdən mənəvi qida alırdı.

Asiya Universitetinin rektoru, professor Cəlil Nağıyev bir dəfə yolda rastlaşarkən dedi ki, yayda Lerikə getmişdim, dostum Vəkilgildə qaldım. Düzü, uşaqları da aparmışdım, istəmirdim Vəkilə də artıq yük düşsün, onsuz da evindən qonaq-qara əksik olmur. Nə illah elədimsə başqa yerdə qalmağıma razı olmadı, evində bizim üçün otaq ayırdı. Bütün idarə işini-gücünü buraxdı, gündüzlər bizi kəndlərə apardı. Bir manat pul xərcləməyə imkan vermədi. Vallah, belə insan nadir insandı, tarix az-az yetişdirir. Məşhur riyaziyyatçı-professor, “əməkdar elm xadimi” Asəf İsgəndərov Vəkili “ürəkləri oxumağı bacaran incə ruhlu şəxsiyyət, həyatdan zövq almağı sevən dost” adlandırır.

Bir gün söhbət əsnasında xatirələr baş alıb getdi. Köhnə kişilərdən — rəhmətlik Şirvan Muradovdan, qohumu Talıb Məmmədovdan, atam Hüseyn Həsənovdan, Şamil İsgəndərovdan danışdı. Qəfildən mənə tərəf çevrilib dedi: “Əyyub İsgəndərov nəyindi, onu yaxşı tanıyırdın?”. Mən ciddi surətdə “Əlbəttə, Rvarud kəndində hamının bir-birinə simsarlığı çatır” — söylədim. O, kövrələ-kövrələ (onda Əyyub müəllim yenicə dünyasını dəyişmişdi) “Əyyub kimi alicənab, cəngavər, igid adamlar nəinki bizim rayonda, hətta Azərbaycanda az-az yetişir. Onunla tanış olmaq, görüşmək, çörək kəsmək mənim də payıma düşüb. Heyif ki, belə parlaq şəxsiyyət cəmi 57 il yaşadı” — dedi.

Xalq şairi Fikrət Qocadan haçansa eşitdiyim səmimi sözlər: “Lerikdə Vəkil Ağababayev yaşayır, gözəl, səmimi insandı. Onu uzun illərdi tanıyıram, bax, o sizin bulaq sularınız necə safdırsa, ürəyi eləcə safdı, təmizdi. Bakıda yaxşı adısanı vardı, yüksək vəzifə tuta bilərdi, birdən atıb getdi. Bu haqda özündən soruşdum. Dedi, anamı tək qoyub şəhərdə yaşaya bilmərəm. Əhsən, belə vicdan sahibinə!

Bu cür insanlar cəmiyyətə, say çoxluğuna əcəb nümunədi.”

Neçə il öncənin xatirəsidir. Lerikdə SSRİ dönəmində birinci katib işləmiş Sultan Məmmədovla İran Astarasında ölkələrarası dövlət tədbirindəydik. Rəsmi söhbətlər qurtarmışdı. Sultan müəllim köhnə tanış kimi (O, Milli Məclisin deputatıydı) birdən qoluma girdi, məni kənara çəkdi: “Sən Allah, Vəkil Ağababayevi görəndə həmişə məndən salam de” — söylədi. Bir gün isə Vəkil Ərdəbil şəhərindən qayıtmışdı. Mənə həyəcanla zəng açıb dedi ki, Şah İsmayıl Xətainin məqbərəsini ziyarət edib, xatirə dəftərində böyük mütəffəkirə, fatehə həsr etdiyim şeirimdən bir bənd yazıb.

+++

Vəkil Ağababayev 70 ildə bir neçə 70 ili yaşamağı bacaran unikal insandır. Həqiqətən belə nadir şəxslər az doğulur. Yaşadığı illər ərzində gözəl övladlar yetişdirib, tərbiyə edib. Ömürgün sirdaşı Bəyim xanım həqiqətən əsl Azərbaycan qadınlarına xas olan müsbət keyfiyyətlərə malikdir. Ailənin böyük oğlu Nəsimi diplomatik cəbhədə ləyaqətlə çalışır. O biri oğlanları da həyatda yerlərini tutublar. Bir ömrün ixtiyar çağları üçün bundan gözəl ərməğan, şirin nübar nə ola bilər ki?

## ELAN

Ukrayna Respublikası Elm, Təhsil, Mədəniyyət və Turizm nazirliyi, Heydər Əliyev adına Ukrayna-Azərbaycan Təhsil, Elm, Mədəniyyət, İdman Mərkəzi, Beynəlxalq Təhsil və Elm Mərkəzi (Bakı).

Ukrayna, Rusiya dövlət universitetlərində, Vrotslav (Polşa) Dövlət universitetində təhsil almağa dəvət edir (bakalavr, mütəxəssis, magistr, aspirant).

1. T. Şevçenko adına Milli dövlət universiteti (“Milli” statusu universitetlərə ölkə prezidentinin fərmanı ilə verilir).
2. Ukrayna Milli Texniki universiteti.
3. Ukrayna Milli Aviasiya universiteti.
4. Ukrayna Milli Linqvistika universiteti.
5. Ukrayna Milli Memarlıq və İnşaat universiteti.
6. Kiyev Milli Tibb universiteti (Boqomolts adına).
7. Kiyev Dövlət Nəqliyyat universiteti.
8. Kiyev Dövlət Ticarət-İqtisadiyyat universiteti.
9. Bütün Ukrayna vilayət mərkəzlərinin dövlət universitetləri (Odessa, Donetsk, Xarkov, Poltava, Simferopol, Jitomir, Vinnitsa, Lvov, Çerkassı, Dnepropetrovsk və s.).

1. Moskva Memarlıq və İnşaat universiteti.
2. Plexanov adına İqtisadiyyat universiteti.
3. Moskva Tibb universiteti.
4. Moskva Mühəndis-fizika universiteti.
5. Dağıstan Dövlət universiteti.
6. Rusiya Prezidenti yanında dövlət qulluqçuları akademiyası.

1. Vrotslav (Polşa) Dövlət universiteti (universitet təhsili bitirənlərə Polşa, Fransa (ikili) diplomunu və İngiltərə Krallığı Logistika (iqtisadiyyat) və Nəqliyyat institutunun sertifikatını verir).

**İxtisaslar:**

Bütün humanitar, Tibb, İqtisadiyyat, Texniki və başqa ixtisaslar təklif olunur. İxtisaslarla bağlı suallara Xəzər universiteti, Karyera Mərkəzində cavab almaq olar. Respublikamızdan xaricdə alınan təhsil Beynəlxalq Təhsil və Elm Mərkəzinin (Bakı) universitetlərlə bağladığı Müqavilələr əsasında aparılır. Bu Müqavilələrə əsasən Mərkəzin vasitəçiliyi ilə universitetlərə qəbul olunanlar təhsil müddətində Mərkəzin diqqət mərkəzində saxlanılacaq.

**Ünvan və əlaqə telefonları:**

**1. 8-ci km. qəsəbəsi, Məhsəti küçəsi 11, Xəzər universiteti, Karyera mərkəzi, Sənədlərin qəbulu — Əlövsət müəllim, telefon: 050-321-31-69.**

**2. Tel: (012) 429-66-54, 050-398-32-68, 055-466-26-68.**

**3. Bakıxanov qəsəbəsi, Mehmandarov küçəsi, 23, “Modern” tədris mərkəzi, tel:(012) 511-93-74 Adil İsgəndərov adına Mədəniyyət sarayı, tel: (012) 429-86-25 (Bədii rəhbər)**

06.06.1980-ci il təvəllüdlü Məmmədov Fariz Aftandil oğlunun adına verilmiş şəxsiyyət vəsiqəsi AZ № 01750159 itdiyi üçün etibarsız sayılır.

Xəzər DKQİ-si tərəfindən Batşev Pavel Timofeyeviçə verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Q□zet 1992-ci il noyabrın 17-d□n çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar □liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet “Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: “525” şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2591
“TURAN”, “TREND”, AzərTAc, “AssA-İradə”, APA v□ “OLAYLAR”ın informasiyalarından istifad□ olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.